# “Çağdaş Türkman ədəbiyyatı” Azərbaycanda



**AMEA Ədəbiyyat İnstitutunda “Çağdaş Türkman ədəbiyyatı” mövzusunda elmi seminar keçirilib. Təbirdə tədqiqatçı alim, yazıçı Şəmsəddin Kuzəçi məruzə edib.**

Qazaxıstandan gəlmiş alimlərin də qatıldığı seminarı girş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Türkman və Azərbaycan ədəbiyyatının əlaqələrindən danışıb. Xoryat janrında yazılan əsərlərin kərkük ədəbiyyatında xüsusui rolunu vurğulayıb. “Şəmsəddin Kuzəçi Kərkük mövzusunda 73 kitab yazıb. İraq–Azərbaycan, Kərkük–Azərbaycan əlaqələrinin inkişafında onun böyük xidmətləri var. Alim Türkiyə ilə qarşılıqlı ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsinə də sanballı töhfələr verib”.

Akademik İsa Həbibbəyli türkman alimlərinin elmi məqalələrindən ibarət kitabın çap olunması zərurətini vurğulayıb. Ardınca Şəmsəddin Kuzəçiyə “Azərbaycan–İraq-Türkman ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki görkəmli xidmətlərinə, Azərbaycan elmi-ədəbi dairələri ilə səmərəli əlaqələrinə görə” Ədəbiyyat İnstitutunun fəxri doktoru diplomu təqdim edilib.

Sonra Şəmsəddin Kuzəçi çıxış edib. O, tədbirin təşkilinə görə təşəkkürünü çatdırıb. İraq türkmanlarının məskunlaşma tarixinə nəzər salan məruzəçi çağdaş türkman ədəbiyyatının ümumi mənzərəsini diqqətə çatdırıb, aparılan tədqiqat işləri barədə ətraflı məlumat verib və hazırda türkman şairlərinin 2 cildlik antalogiyasını hazırladığını qeyd edib.

Filologiya elmləri doktoru, professor, Əməkdar Elm Xadimi Qəzənfər Paşayev görülən işləri təqdir edərək, 12 iyul 2023-cü il tarixində Azərbaycanda İraq-Türkman Araşdırmaları Şurasının yaradıldığını xatırladıb və şuranın tədbirlər planının artıq hazır olduğunu bildirib.

İraq–Türkman Araşdırmaları Şurasının sədri, akademik Teymur Kərimli bu sahədə görülmüş işlərdən bəhs edib, qarşıda duran məsələlərdən söz açıb.

Seminarda qazaxıstanlı alim Ağmaral İsmaqulova, filologiya elmləri doktoru, professor İmamverdi Həmidov, tarix elmləri doktoru Güllü Yoloğlu çıxış edərək bu kimi tədbirin gələcək işlərə böyük təkan verəcəyinə inandıqlarını bildiriblər.

***Q.RAMİLƏ***
***XQ***

Xalq qəzeti.- 2023.- 26 oktyabr, №234.- S.10.